16 mart saat 19:00-da “Yeni çağırışlar” müzakirə proqramında “Coursera” beynəlxalq onlayn təhsil platformasının baş icraçı direktoru Cef Maajioncalda qonaq olacaq.

Cef Maajioncalda ilə “Rəqəmsal dünyada öyrənmək” barəsində danışılacaq.

“Coursera” hər kəsə istənilən yerdə aparıcı universitet və şirkətlərin onlayn kurslarına qoşulmaq imkanı yaradan beynəlxalq təhsil platformasıdır.

115 milyondan çox istifadəçisi olan platformada 5400-dən artıq kurs mövcudur. “Coursera” 300-dən çox aparıcı universitet və şirkətlə tərəfdaşlıq edir.

Qeyd edək ki, proqram Elm və Təhsil Nazirliyinin rəsmi “Facebook” səhifəsi üzərindən Azərbaycan dilinə tərcümə ilə canlı yayımlanacaq.